**UOT 792**
**https://doi.org/10.59849/2311-8482.2024.1.234**

**BƏHRUZ NİFTƏLİYEV***

# MİLLİ-MƏNƏVİ DƏYƏRLƏRİMİZ VƏ TELEMƏKANIMIZ

*Kütləvi İnformasiya Vasitələri arasında televiziya vüzuallığı, operativliyi ilə daha çox diqqəti cəlb edir. Odur ki, teleməkanda səslənən hər bir sözə, informasiyaya, fakta, göstərilən hadisəyə diqqətlə, məsuliyyətlə yanaşmaq lazımdır. İstər informasiya xarakterli ciddi verilişlərdə, istərsə də əyləncə xarakterli şou verilişlərində milli-mənəvi dəyərlərimiz, adət-ənənəmiz, ana dilimizi qorunalı və yaşatmalıyıq.*

*Ümummilli liderimiz H.Əliyev də hər zaman KİV əməkdaşlarına bunları tövsiyyə edirdi ki, "hər bir azərbaycanlı dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini qorumalı və gələcək nəsillərə ötürməlidir". Təbii ana televiziyamız olan AzTV bu məsələlərə daha həssaslıqla, məsuliyyətlə yanaşır. Demokratik ideyalar, vətəndaş azadlığı, mənəvi dəyərlərin qorunması, formalaşması, əxlaq normaları və s. keyfiyyətlər əsas götürülür. Azərbaycan teleməkanında öz yeri olan İTV bu məsələlərə öz məkanında geniş yer verir. "Yüni gün", "Media-zaman" verilişləri buna misal ola bilər. Həm AzTV, həm də İTV-də cəmiyyətin bütün təbəqələrini nəzərə alaraq hər yaşa, zövqə, dünya görüşünə, düşüncə tərzinə uyğun verilişlər hazırlanır. Onu da qeyd edim ki, son illər ölkəmizdə bu sahədə mükəmməl hüquqi baza yaradılıb. Bu hüquqi bazanın yaranması radio-televiziya məkanında işlərin hüquqi baxımdan tənzimlənməsinə də səbəb oldu. Görülən bu işlər, qəbul edilən hüquqi sənədlər radio-televiziya məkanında həm yaradıcılıq, həm də texniki yeniləşmə sahəsində də keyfiyyətli və məzmunlu işlərin görülməsinə yol açdı.*

***Açar sözlər:*** *informasiya, teleməkan, milli-mənəvi dəyərlər, ana dili, etik qaydalar*

## Giriş

Kütləvi İnformasiya Vasitələri arasında televiziya bu gün də ən önəmli informasiya vasitəsidir. Vüzuallığı, operativliyi ilə cəmiyyətə güclü təsir edir. Görkəmli türk telenəzəriyyəçisi R. Bülbül "Genel Qazetecilik" əsərində bu haqda fikirlərini belə şərh edir: "Televiziya danışığı və hadisəni görüntülərlə, göz önünə gətirməklə mətbuatın kəşf edilməsindən bəri xüsusi qiymətləndirilən bir texniki vasitədir (9,s.83).

## Əsas təhlil

Burada səslənilən hər bir sözə, fikirə, yayımlanan hadisəyə, fakta, informasiya diqqət yetirilməli və etik qaydalara əməl edilməlidir. İstər informasiya xarakterli ciddi verilişlərdə, istərsə də əyləncə xarakterli şou verilişlərdə milli-mənəvi dəyərlərimiz, adət-ənənələrimiz, dövlətçiliyimiz, milli mədəniyyətimzi, ana dilimizi qorumalı və yaşatmalıyıq. Bunu ümummilli liderimiz H.Əliyev də hər zaman KİV əməkdaşlarına tövsiyyə edib. "Hər bir azərbaycanlı öz milli mənsubiyyətinə görə qürur hissi keçirməlidir və biz azərbaycançılığı Azərbaycan dilini, mədəniyyətini, milli-mənəvi dəyərlərini, adət-ənənələrini yaşatmalıyıq" (2, s.36).

Azərbaycan Televiziya və Radio Verilişləri Qapalı Səhmdar Cəmiyyətində bütün bu məsələlərə ciddi nəzarət edilir. Hər bir sahədə olduğu kimi yuxarıda sadaladığımız məqamlara AzTV daim diqqətlə, qayğı ilə, məsuliyyətlə yanaşır və ən əsası KİV sistemində özünəməxsusluğunu uzun illərdir qoruyub saxlaya bilir. Əslində yalnız Azərbaycan Milli Televiziyası yox, bütövlükdə Azərbaycan teleməkanı unutmamalıdır ki, onlar millətin tarixini, milli-mənəvi dəyərlərini qorumalı, yaşatmalı və gələcək nəsillərə ötürməlidir.

Burada bir faktı qeyd etmək lazımdır ki, Azərbaycan teleməkanında fəaliyyət göstərən özəl TV kanalları da milli maraqlara, ictimai marağa xidmət edir. Lakin burada onların hər birinin öz tamaşaçı və maraq dairəsi də özünü büruzə verir. Amma unutmaq olmaz ki, vətəndaşlıq mövqeyi, milli-mənəvi dəyərlər hər şeydən üstün tutulmalıdır, istər siyasi, istər digər mövzularda. Əslində "demokratik dəyərlərə çoxdan yiyələnmiş Qərb ölkələrində jurnalistika siyasətdən tamamilə ayrıdır. İndi beynəlxalq jurnalistika məsələni belə qoyur: Jurnalistika siyasətlə məşğul olmur, o, siyasəti işıqlandırır (6, s.415).

Demokratik dəyərlərə yiyələnən Azərbaycanda da bu prinsipin qorunub saxlanması üçün işlər görülür. Məsələn, AzTV və İTV-də hər zaman milli maraqlara xidmət üstün tutulur və bu hiss olunacaq səviyyədədir. Əsasən də demokratik ideyalar, vətəndaş azadlığı, mənəvi dəyərlərin qorunması, formalaşması, əxlaq normaları və s. keyfiyyətlər əsas götürülür və bu verilişlərin keyfiyyətində də

özünü büruzə verir. Onu da qeyd etmək lazımdır ki, son illər AzTV-nin maddi-texniki bazası xeyli dərəcədə dəyişib və modernləşdirilib. Bütün studiyalar və montaj otaqları rəqəmsal avadanlıqla təchiz olunub. HD-səyyar televiziya stansiyaları alınıb. Televiziya proqramlarının Avropa ölkələrində keyfiyyətlə yayımı təmin edilib. "Telaradio" İstehsalat Birliyinin mütəxəssisləri teleqüllə kompleksində yeni rəqəmsal stansiya quraşdırıblar. İndi Azərbaycan televiziyasının verilişləri həmin stansiyadan Avropaya, Şimali Amerikaya, Asiyaya yayımlanır.

Dövlətçiliyimizin, milli-mənəvi dəyərlərimizin keşiyində dayanan AzTV –də son illər mövzu dairəsi kifayət qədər geniş və rəngarəng olan müxtəlif veriliş və proqramlar müşahidə edilir. "Vətənim Azərbaycan", "Azərbaycan deyəndə", "Məmləkətim", "Tarixin izi ilə", "Döyüşçü", "Oxuyur Vətən", "Türk dünyası", "Mən azərbaycanlıyam", "Əsas məsələ" və s. verilişlərini misal çəkə bilərik. Deməli, ana televiziyamız öz ənənəsinə sadiqliyi ilə seçilir və milli-mənəvi dəyərlərimizin təbliğində yorulmadan axtarışlar aparır. Təqdim olunan hər bir verilişdə ana dilimizin saflığı qorunur, maarifçilik aşlanır, vətənpərvərlik amalı tamaşaçının ruhuna hopur. Məhz bu uğurlu fəaliyyətinə görə AzTV "Avropa keyfiyyəti" medalına layiq görülüb. Eləcə də Avropa Biznes Assambleyası Azərbaycan televiziyasına "Teleradio yayım sahəsində ən yaxşı şirkət" mükafatını təqdim edib.

Bu gün Azərbaycan teleməkanında öz sözü, yeri olan İctimai Televiziya (İTV) milli-mənəvi dəyərlərimizlə bağlı, unudulan bir çox ənənələrin dirçəldilməsinə öz məkanında yer verərək, gənclərimizin milli ruhda tərbiyə olunmasına şərait yaradır. Buna görə də cəmiyyətdə İctimai televiziyaya maraq daha çoxdur. İctimai televiziya yarandığı gündən, tamaşaçısını "əldə saxlamaq" üçün daim axtarışdadır, yeni layihələrə imza atır.

İctimai TV-də hər səhər evlərimizin qonağı olan musiqili, informasiya verilişi olan "Yeni gün", mətbuatın cəmiyyətdəki rolunu, yerini vurğulayan "Media-zaman", şirin-şəkər balalarımızın qonağı olan "Biri varmış-biri yoxmuş" və daha neçə-neçə verilişlər tamaşaçı rəğbəti qazanıb. Unutmayaq ki, hər verilişin də öz tamaşaçısı var. Bəziləri informasiya xarakterli verilişlərə üstünlük verir, bəziləri isə əyləncəli. İctimai televiziya cəmiyyətin bütün təbəqələrini nəzərə alaraq hər yaşa, zövqə, dünyagörüşünə, düşüncə tərzinə, bilik səviyyəsinə, həyata baxış dairəsinə uyğun verilişlər hazırlayır. Yaxşı olardı ki, bütün özəl telekanallarımız İctimai TV-nin bu ənənəsinə şərik olsunlar və televiziya mədəniyyətinin bariz nümunəsi kimi belə nəcib hərəkətləri özləri üçün örnək etsinlər.

Onu da qeyd etmək lazımdır ki, "Azərbaycan radiosunun və televiziyasının yaradıcılıq axtarışlarının genişlənməsi, maddi-texniki bazanın güclənməsi, beynəlxalq əlaqələrin artması, efir və ekran fəaliyyətinin mükəmməl hüquqi təminat bazasını yaratmağı zəruri edirdi və bu hüquqi baza yarandı" (1, s.64).

2002-ci il iyunun 25-də qəbul edilən "Televiziya və radio yayımı haqqında" Qanun ölkəmizdə radio-televiziyanın fəaliyyətini tənzimləyən, hüquqi, iqtisadi və təşkilatı əsaslarını müəyyənləşdirən mühüm bir sənəd oldu. Bundan sonra "Televiziya və radio yayımı haqqında" Azərbaycan Respublikası Qanununa müvafiq olaraq ölkə Prezidentinin 2002-ci il 5 oktyabr tarixli fərmanı ilə Milli Televiziya və Radio Şurası yaradıldı. Hüquqi bazanın yaradılması radio-televiziya məkanında işlərin hüquqi baxımdan tənzimlənməsinə yol açdı.

Görülən bu işlər, qəbul edilən hüquqi sənədlər radio-televiziya məkanımızda həm yaradıcılıq, həm də texniki yeniləşmə sahəsində atılan əhəmiyyətli addımlara onların daha keyfiyyətli və məzmunlu iş görməsinə səbəb oldu.

Burada bir faktı qeyd etmək lazımdır ki, istər radioda, istər televiziyada hər bir verilişin uğurlu alınmasında aparıcı mühüm rol oynayır. Əksər teleradio nəzəriyyəçiləri bu fikirdədir ki, aparıcı televiziyanın, radionun əsas simasıdır. Onlar televiziya və radio barədə ilk rəy formalaşdırırlar. Əksər sənət adamları "verilişi yaxşı edən verilişin həm müəllifi, həm də aparıcısıdır" (1, s.166) fikrini söyləyirlər. Belə olduqda sual yaranır: "aparıcı necə olmalıdır ki, auditoriya onları qəbul etsin və sevsin?". Çoxluq bu fikirdədir ki, aparıcı yaraşıqlı, gözəl, cəlbedici olmalıdır. Bunlarla yanaşı televiziya aparıcılarında başqa xüsusiyyətlərə də diqqət yetirilməlidir. "Aparıcı demokrat, özünə inamlı olmalıdır, dəqiq diksiyaya və ifadəli intonasiyaya sahib olmalıdır" fikirimi "Canlı yayımda ünsiyyət formaları" (8) adlı məqaləmdə belə açıqlayıram:

* Aparıcı gözəl olmasa da olar, amma mütləq rəğbət oyatmalı, xoşagəlimli olmalıdır;
* Demokrat olmalıdır, amma vulqar yox;
* Özünə inamlı olmalıdır, amma bu, özündənrazılığa çevrilməməlidir;

* Dəqiq diksiyası və ifadəli intonasiyası olmalıdır" (8, s.338).

Auditoriya ədəbi dili radio-televiziya aparıcılarından eşitməlidir" (4, s.102). TV aparıcısını "yüksək səviyyəli ziyalı, layiqli vətəndaş, öz ana dilini sevən və onu nümunəvi tərzdə təqdim edən fərd" ədəbi dil normalarına mütləq riayət etməlidir (7, s.278). Əksər dilçi alımlər və telenəzəriyyəçilər bu fikirdədirlər ki, yaxşı telejurnalist ədəbi dil normalarını yaxşı bilməli və mənimsəməlidir.

Ədəbi dil normalarından və Nitq Mədəniyyəti (NM) problemlərindən geniş bəhs edən telenəzəriyyəçi alim Q.Məhərrəmli yazır ki, "məhz ekran-efirdə NM problemi həm də TV-nin müasir dil proseslərinə ciddi təsiri, o cümlədən cəmiyyətdə yeni yaranan dil mühitini ekranda güzgü kimi əks etdirməsi baxımından aktualdır" (7, s.57). Teleradionun bir funksiyası da NM-ni təbliğ etmək olduğu üçün orada NM-nin bütün tələblərinə əməl edilməlidir. Odur ki, NM-nin nəzəri əsaslarından danışan tədqiqatçılar "ilk növbədə, ədəbi dilin normaları məsələsini ön plana çəkirlər. Çünki norma NM-nin əsas, aparıcı nəzəri kateqoriyası olub, ümumi planda düzgünlük və yanlışlıq kriteriyalarının göstəricisidir" (7, s.59). Nəzərdən keçirdiyimiz bütün bu fikirlər bir daha sübut edir ki, radio-televiziya məkanında NM-i böyük əhəmiyyət kəsb edir. Ona görə də teleradio verilişlərinin dili üzərində müşahidə aparan tədqiqatçıları birmənalı olaraq NM-nin bütün tələblərinə əməl olunmasını dönə-dönə xatırladaraq NM-i probleminin dörd səviyyədə nəzərdən keçirilməsini aktual hesab edirlər:

a) ədəbi normativlik səviyyəsi ekranda səslənən ədəbi dili konkret normalar (əsasən, leksik, qrammatik və orfoepik) çərçivəsində əhatə edir, dilin lüğət zənginliyini, qrammatik səlisliyini, düzgün, dəqiq tələffüzünü və s. nəzərdə tutur;

b) təfəkkür səviyyəsi cümlənin (bütöv mətnin, çıxşın) məzmunu ilə bağlıdır. Bu səviyyə mətnin məntiqliyini, elmiliyini, sistemliliyini əhatə edir, məntiq və məna səhvlərinin aradan qaldırılmasını labüdləşdirir;

c) estetik səviyyə nitqin səslənməsi və auditoriyaya emossional təsir ilə bağlıdır. Bu anlayış nitqin gözəlliyi, aydınlığı, emosionallığı, bədiiliyi və s. kimi estetik kateqoriyaları əhatə edir;

ç) audiovizual vasitələrlə qarşılıqlı əlaqə səviyyəsi dil vasitələrinin ekranın ifadə vasitələri ilə (təsvir, musiqi, səs effektləri və s.) qarşılıqlı münasibətini nəzərdə tutur. Səslənən və görünən sözün mühüm atributu olan ekstralinqvistik vasitələri (jest, mimika, intonasiya və s. ) də bu səviyyəyə aid etmək olar (7, s.59-60).

Deməli ekranda normalar ədəbi dilin bütün səviyyəsini əhatə edir: fonetik, leksik, qrammatik, orfoepik, orfoqrafik və üslubi normalar. Normalara laqeyd yanaşanlar Azərbaycan dilinin bütün qayda-qanunlarının pozulması üçün münbit şərait yaradır. Bu da ondan irəli gəlir ki, onlar bəzən belə müqəddəs işə əhəmiyyətsiz bir məsələ kimi yanaşırlar. Bu isə "Azərbaycan dilinə xəyanətdən başqa bir şey deyil" (3, s.16-17).

Bir sözlə TV nümunəvi nitq tribunası olmalıdır. Burada əsas vəzifə telejurnalistlərin, aparıcıların üzərinə düşür. Ona görə aparıcını televiziyanın siması adlandıran əksər tədqiqatçılar televiziya aparıcılarını üç qismə bölürlər.

- xəbər aparıcısı;
- analitik proqramların aparıcısı;
- əyləncəli, yəni şou aparıcısı.

Xəbər aparıcısını əsasən kanalın "vizit kartı" adlandırırlar. O, tamaşaçısında özünə qarşı inam hissi yaratmağı bacarmalıdır. Onun əsas vəzifəsi baş vermiş hadisələri obyektiv şəkildə səlis, aydın dildə tamaşacısına çatdırmaqdır və bunun üçün aşağıdakı tələblərə mütləq əməl etməlidir.

-sözlər yazıldığı kimi yox, deyildiyi kimi oxunmalıdır. Xarici dildəki sözlərin oxunuşları qarşısında yazılmalıdır;

-aparıcı tez-tez kameraya baxmalıdır, mimikalardan çox istifadə etməməlidir;

-efir rejissorunun təlimatlarına uyğun hərəkət etməlidir, texniki qüsurları və digər axsaqlıqları tamaşaçıya sezdirmədən çıxış etməlidir;

-studiyadakı qonaqlar və telefon əlaqəsi qurulan şəxslərlə nəzakətli, obyektiv və məsafəli olmalıdır (8, s.339).

Bunlarla yanaşı xəbər aparıcısı hər gün baş verən hadisələri müntəzəm izləməli, hadisələr haqqında bilgisi olmalı, efirə çıxmazdan 10-15 dəqiqə əvvəl mətinlə tanış olmalıdır, onu diqqətlə oxumalıdır, anlaşılmazlıq olan hissələri aydınlaşdırmalıdır, lazım olan yerləri əzbərləməlidir, vurğu ilə söyləyəcəyi və oxuyacağı hissələri əvvəlcədən müəyyənləşdirməli və informasiyanı qərəzsiz, dəqiq,

vicdanlı və s. şəkildə təqdim etməyi bacarmalıdır. Bir sözlə tamaşaçısını oxuduğu xəbərə inandırmaq və onu ekrana cəlb etmək üçün beynəlxalq aləmdə birmənalı olaraq qəbul edilmiş qaydalara əməl etməlidir:

-İnformasiyanın mənbəyini göstərmək;
-Prioritet mövzunu obyektiv müəyyənləşdirmək;
-Jurnalistin sosial məsuliyyəti;
-Şərə qarşı mübarizə;
-Qərəzsizlik;
-Vicdanlılıq;
-Dəqiqlik" (6, s.417)- əgər hər bir kanal və onun xəbər aparıcıları bunlara əməl etməzsə o, öz tamaşaçısını itirmiş olar. Təəssüf ki, bu gün də bəzən informasiyanın mənbəyini dəqiq göstərmək əvəzinə "bəzi mənbələr", "məlumatlı mənbələr", "adının çəkilməsini istəməyən mənbə" və s. ifadələr işlədilir.

Yeri gəlmişkən qeyd edək ki, bu ifadələrdən daha çox ATV-də yayımlanan "Bizimləsən" verilişinin aparıcısı Zaur Baxşəliyev istifadə edir. Uzun illər teleməkanda olmasına baxmayaraq Zaur Baxşəliyev anlamır ki, informasiya mənbəyinin dəqiq göstərilməməsi həm tamaşaçıya qarşı hörmətsizlikdir, həm də məsuliyyətsizlikdir. Aparıcı unudur ki, "informasiya mənbəyinin göstərilməsi tamaşaçıya həqiqətin təqdim olunmasının sübut faktıdır və tamaşaçı inamını qazanmağın yollarından biri də budur" (6, s.419)

Bu gün teleməkanlarımızda belə aparıcılar çoxdur. Onların qoyulan tələblərə necə əməl etməsi məsələsini "525-ci qəzet"in yazarı Sevda xanım "Azərbaycan yaraları" (10) sərlövhəli məqaləsində çox aydın, dəqiq, faktlar əsasında şərh edib. Məsələn, məqalədə o zaman "ANS" televiziyasında çalışan Aytən Səfərovanın qoyulan tələblərə riayət etməməsindən bəhs edilir. Amma çox təəssüf ki, Aytən Səfərova bu gün də teleməkanı "zəbt" edən aparıcılardandır (10). Doğrudur məqalə yazılan vaxtdan on beş ildən çox vaxt keçsə də problemlərin bəziləri kanallarımızda hələ də mövcuddur. Xüsusən də aparıcıların ədəbi dil normalarına, peşə etikasına və s. əməl etməmələri.

Professor B.Xəlilov teleməkanlarımızı "zəbt" edən çoxsaylı belə "peşəkarlar"ı "mətbuat və ədəbi dilimizdən, onların normalarından, eləcə də bu sahənin tarixindən xəbərsiz" "peşəkarlar" adlandırır" (5, s.10-16). Bir daha qayıdaq Sevda xanımın məqaləsinə. Xanım yazır ki, "əksər teleməkanlarımızda gənc, zahiri cəhətdən bir o qədər də efirə yararlı olmayan, nitqində kifayət qədər orfoepik, təbii qüsurlar olan, ləhcə və ya dialekt, şivələrlə danışan, ekran qarşısında gərginlik keçirən, xəbərlərin mozaik strukturu arasında məntiqi rabitə qurmağa qadir olmayan, gözü kifayət qədər diqqətlə suflyora dikilmiş, düzgün oxuya bilməyən, jest, mimikadan istifadə etmədiyi üçün cansız görünən aparıcılar var və onlar kifayət qədər verilişə mənfi təsir edirlər" (10).

Müəllif tamamilə haqlıdır. Əslində həmin iradları təkcə xəbərləri aparan aparıcılarımıza şamil etmək düz olmaz. Həmin qüsurlar əksər verilişlərin aparıcılarına da aiddir. Biz sadəcə xəbər aparıcılarına daha çox ona görə diqqət yetirdik ki, "xəbər proqramının "sahibi" aparıcı hesab olunur və xəbər bütövlükdə KİV-də, xüsusilə TV-də aparıcı yer tutur" (6, s. 557-564).

Professor C.Məmmədli yazır ki, "xəbərlərin efirə çıxması bir çox texniki personalla yanaşı, əsasən, aparıcının və prodüsserin məsuliyyəti altındadır. Prodüsser montajın keyfiyyətinə, süjetdə redaktor niyyətinin dolğun ifadəsinə və blokların məntiqi düzümünə, titrlərin, subtitrlərin yazılmasına, kasetlərin efir hazırlığına nəzarət edir" (6, s.565)

Xəbərin bütün KİV-də özünəməxsus yeri var. O cümlədən televiziyada da. "Məhz informasiya proqramlarının vasitəsilə televiziya öz reytinqini müəyyənləşdirir" (6, s.580). Odur ki, hazırda bütün dünyada informasiyaya artan tələb klassik irihəcimli proqramları sıxışdırır. Ona görə "Tok-şou" adlanan informasiya proqramları bütün dünya TV kanallarında üstünlük təşkil edir. Bu bizim də teleməkanımızda belədir. Məsələn, əvvəllər "Xəzər TV" kanallarının informasiya proqramları bu metoda daha çox meylli idi. Əslində televiziyanın "ən vurhaylı otağı" xəbərlərin hazırlandığı studiyadır. Onun hazırlanması doğrudan da ağır və gərgin əmək tələb edir. Toplanan hər bir informasiya xəbər halına salınaraq aparıcıya ötürülənədək bir neçə mütəxəssisin əlindən keçir. Məsələn, xəbərlərin hazırlanmasında jurnalistlə yanaşı, reportyorlar, prodüsserlər, operatorlar, rejissorlar, efir işçiləri, montajçılar, redaktorlar və s. iştirak etsələr də, yenə də əsas məsuliyyət aparıcının üzərinə düşür. Çünki tamaşaçı ilə ünsiyyətdə birbaşa o olur. Bu gün dünya "KİV sistemində rəqabətin getdikcə

daha sərt büruzə verldiyi televiziyada jurnalistin gücü və peşəkarlığı, ilk növbədə, informasiya proqramlarının təqdimatında hiss olunur" (6, s.571).

Onu da qeyd edək ki, televiziyaya hazırlanan xəbərlərdə üç mühüm ünsür əsasdır: məzmun, görüntü və səs. Bunların hər üçü bir-birini tamamlamalıdır. Çünki televiziya xəbəri tamaşaçısına məlumat verməklə yanaşı hadisəni ona göstərir də. İlk olaraq Azərbaycan televiziyasının "Xəbərlər" proqramına diqqət yetirək. Ana televiziyamız bütün teleməkanımız üçün həm yaradıcılıq məktəbidir, həm də örnək olan bir ocaqdır. Burada dövlətçilik, azərbaycançılıq ideologiyasının təbliği üstünlük təşkil edir. Bu bir daha sübut edir ki, Azərbaycan televiziyası həmişə olduğu kimi, bu gün də bu şərəfli missiyanı layiqincə yerinə yetirir. Proqramın əsas vəzifəsi dövlətçiliyimizin keşiyində durmaq, millətə, torpağa, Vətənə sevgi aşılamaq, müstəqilliyimizlə qürur duymaq və ən başlıcası milli-mənəvi dəyərlərimizi dünya arenasına çıxarmaq. "Aztv xəbər" informasiya proqramı tamaşaçını ilk növbədə ölkəyə, dövlətə bağlı rəsmi xəbərlərlə tanış edir. Daha sonra isə dünyada və ölkəmizdə baş verən hadisələrin xronikasını təqdim edir. "Aztv xəbər"in dünyanın bir çox ölkələrində müxbir məntəqələri var. Türkiyə, Rusiya, ABŞ, Kanada, İran, Mərkəzi Asiya, Qərbi Avropa, Ərəb ölkələri, Şimali Afrika və s. ölkələrdə olan müxbir postları dünyada baş verən hadisələr haqqında məlumat verir. Ona görə də "Xəbərlər" proqramının studiyasında üç bölmə- Azərbaycan, rus və ingilis bölmələri fəaliyyət göstərir və üç dildə yayımlanır.

Bu proqram üslubunu və tematikasını daim zənginləşdirir və bir məktəb olaraq hadisələrə TV yanaşmasını, qərəzsizliyi, balanslılığı necə qorumaq, jurnalistə necə vicdanlı olmaq prinsiplərini öyrədir. Əlbəttə "Xəbərlər"in peşəkarlıqla tamaşaçıya təqdim edilməsində onun görkəmli aparıcılarının da böyük rolu var. Rafiq Həşimov, Dilarə Səlim, Ruslan Həsənov, Lalə Məmmədova, Mümtaz Xəlilzadə, Samirə Mustafayeva kimi peşəkar aparıcılar uzun illərdi bu proqramı böyük sevgiylə, həvəslə tamaşaçıya təqdim edirlər. Bu aparıcılar ana dilimizə yanaşma tərziylə, dilimizin leksikasına, sintaksisinə hörmət prinsipi ilə bir nümunə rolunu oynayırlar. Onları dinləmək tamaşaçıya zövq verir. Səlis nitqiləri, sadəliyi və təvazökarlıqları ilə tamaşaçını ekran qarşısında saxlamağa "vadar" edirlər. Xəbər yayımında aparıcının mümkün olan ən qısa zamanda xəbəri təqdim etməsi vacib amillərdən biridir, burada aparıcının fərdi bacarıqları ilk olaraq özünü büruzə verir. Xəbər aparıcısı tamaşaçısını təkrar informasiya ilə nə yormalı, nə də az informasiya verməklə kanaldan uzaqlaşdırmalıdır. Yuxarıda adlarını sadaladığımız aparıcılar bu amillərə yerli-yerində əməl edirlər.

**Nəticə**

Bütövlükdə televiziya xəbərinin ən əsas, vacib, önəmli cəhətlərindən biri də informasiyanı tamaşaçıya tez bir zamanda dəqiq çatdırmaqdır. Burada görüntü ilə birgə təqdim edilən informasiya üst-üstə düşməlidir; xəbərin dəyəri, mövzusu, görüntünün dəqiqliyi, xəbərin səslənməsi və s.

## ƏDƏBİYYAT

1.Əlizadə Y. Məhərrəmli Q. Azərbaycan efri: tarix və müasirlik. Bakı: Nurlan, 2006, 184 s.
2. Əliyev H. Müstəqilliyimiz əbədidir. 36-cı kitab, sentyabr 2001 noyabr. Çıxışlar, nitqlər, bəyanatlar, müsahibələr, məruzələr, fərmanlar. Bakı: 2011, Azərnəşr, 512 s.
3. "Füyuzat" jurnalı, 2014, N-5, 3-4 s.
4. Həsənova N. Realit şoularda aparıcı problemi. Jurnalistika (ictimai-siyasi humanitar elmlər seriyası). Bakı: 2018, Elm və təhsil. N-8, 101-105 s.
5. Xəlilov B. Ədəbi dilimiz. "Füyuzat" jurnalı, 2014, N-5, 10-17 s.
6. Məmmədli C. Jurnalistikanın nəzəriyyəsi və təcrübəsi. Dərslik, II nəşr. Bakı: 2013, Təhsil, 656 s.
7. Məhərrəmli Q. Televiziya dili. Bakı: 2002. Elm. 304 s.
8. Niftiyev B. Canlı yayımda ünsiyyət forması. Dil və Ədəbiyyat. Beynəlxalq elmi-nəzəri jurnal. Bakı: BDU-nəşr. 2 (98), 2016, 338-340 s.
9. Ridval Bülbül. Genel Qazetecilik. Ankara. Kızılay. 2000.
10. "525-ci qəzet", 2003, 5 aprel. Azərbaycan yaraları. Sevda.

***Sənətşünaslıq üzrə fəlsəfə doktoru**
***e-mail:behruznifteliyev@gmail.com***

**Bahruz Niftaliyev***

**OUR NATIONAL-MORAL VALUES AND OUR TELESPACE**

Television efficiency and efficiency among mass media with it attracts more attention. Therefore, every word, Information, fact, and event spoken on TV should be approached carefully and responsibly. We must protect and keep our national and moral values, traditions and native language alive, both in serious programs of information nature and in show programs of entertainment character. Our national leader H.Aliyev all the time, advised that "every Azerbaijani should protect his language, culture, national-moral values, traditions and traditions and to future generations he must pass". Of course, our main television, AzTV, approaches these issues more sensitively and responsibly. Democratic ideas, Civil Freedom, Protection, formation of moral values, moral norms, etc. qualities are taken as a basis. ITV, which has its place in the Azerbaijani TV channel, gives these issues a wide place in its space. The programs "Yeni gun", "Media-zaman" can serve as an example. Both AzTV and ITV are preparing programs for all ages, tastes, worldview and thinking, taking into account all layers of society. I would also like to note that in recent years a perfect legal framework has been created in this area in our country. The emergence of this legal framework also led to the regulation of work in the radio and television space from a legal point of view. The work done, the legal documents adopted have opened the way for high-quality and content work in the field of creative and technical renewal in the radio- television space.

**Keywords:** *information, telespace, national-moral values, native language, ethical rules*

**Бахруз Нифталиев***

**НАШИ НАЦИОНАЛЬНО-МОРАЛЬНЫЕ ЦЕННОСТИ И НАШЕ ТЕЛЕПРОСТРАНСТВО**

Среди средств массовой информации телевидение привлекает больше внимания своей наглядностью и оперативностью. Поэтому к каждому слову, информации, факту и событию, показанному в телепередаче, следует подходить внимательно и ответственно. Мы должны защищать и сохранять наши национально-нравственные ценности, традиции и родной язык как в серьезных информационных программах, так и в развлекательных шоу.

Общенациональный лидер Гейдар Алиев рекомендовал работникам СМИ следующее: «Каждый азербайджанец должен беречь свой язык, культуру, национально-духовные ценности и традиции и передавать их будущим поколениям». Наше национальное телевидение АзТВ, более чутко и ответственно подходит к этим вопросам. Особенно учитываются демократические идеи, гражданская свобода, защита и формирование нравственных ценностей, моральных норм и т.д. Общественное телевидение ITV, имеющая особое место в азербайджанском телевизионном пространстве, уделяет этим вопросам большое внимание. Примером могут служить программы «Ени Гюн», «Медиа-заман». AzTV, и ITV готовят программы, подходящие для любого возраста, вкуса, мировоззрения и образа мышления, с учетом всех слоев общества. Отмечу также, что за последние годы в нашей стране создана прекрасная правовая база в этой сфере. Создание этой правовой базы привело к правовому регулированию дел в радиотелевизионном пространстве. Эти работы, принятые нормативно-правовые документы открыли путь для качественной и содержательной деятельности в области как творчества, так и технических инноваций в радиотелевизионном пространстве.

**Ключевые слова:** *информация, телекосмос, национально-нравственные ценности, родной язык, этические правила.*

*AMEA-nın müxbir üzvü Ərtegin Salamzadə tərəfindən təqdim edilmişdir.*

**İlk daxilolma tarixi: 07.01.2024**
**Son daxilolma tarixi:11.02.2024**